# Şəfalı bitkilər

## Tut meyvəsinin möcüzəsi

Mineral dəyəri yüksək olan ağ və qara tut vitamin və immunitet sistemini gücləndirir. Bu cu xüsusiyyətə malik olan ağ tutun yarpaqları qaynadılıb içildikdə bədəndə yığılan suyu boşaldır. Boş mədəyə yeyilən ağ tut bağırsaq qurdlarını azaldır.



Yorğunluğun azaldılmasına kömək edən bu meyvə yaşlanmanı gecikdirir, dərinin təzə və təmiz qalmasına stimul verir.

Qara tut qanı artırır, böyrək piylənməsi, boğaz qabarıqlığı, çiçək və qızılca xəstəlikləri zamanı orqanizmə şəfa verir, mədəni və bağırsaqları gücləndirir. Qara tutun suyu ilə meyvə eyni zamanda qan azlığında, ağız və diş sağlamlığı problemlərində də çox faydalıdır. edilən qarqara ağız və diş əti iltihablarına, diş əti şişməsinə, badamcıq iltihablarına və boğaz ağrılarına yaxşı təsir göstərir. Eləcə də turş tutun ağız içi yaraların (aft) yaxşılaşması üçün çeynənməsi, şəkər xəstəliyində isə yeyilməsi faydalıdır.

Ağ tutun meyvələri C vitamini ehtiva edir. Onun meyvəsi, bəkməzi, kompotu və riçalı ürək zəifliyinin müalicəsində, mədə-bağırsaq və qaraciyər xəstəliklərində son dərəcə faydalıdır. Ağ tut mədə və bağırsaqların müntəzəm istismarını təmin edir. Sidikqovu-

# İdman xəbərləri

## «Qəbələ» Azərbaycan kubokunu qazandı



Mayın 19-da Azərbaycan kubokunun final oyunu keçirilib. Həlledici oyunda “Qəbələ” “Sumqayıt”la üz-üzə gəlib. Görüş Naxçıvan Muxtar Respublika Stadionunda keçirilib.

Görüş erkən qolla başlayıb. Stiven Monroz sumqayıtlıların qapısına yol tapıb.

Buraxılan qoldan sonra “Sumqayıt” fəallığı artırsa da, “qırmızı-qaralar” təşəbbüsü əldən verməyib.

Həmyerlilərimizin bir neçə dəfə fərqi artırmaq imkanı olsa da minimal hesabla qələbə qazanan “Qəbələ” ilk dəfə Azərbaycan kubokunun sahibi olub və Avropa Liqasına vəsiqə qazanıb.

## Futbolçumuz Azərbaycan millisində



“Qəbələ”nin futbolçusu Bəhlul Mustafazadə Azərbaycan milli komandasına çağırılıb. Müdafiəçi yığmanın AVRO-2020-nin seçmə mərhələsi çərçivəsində keçiriləcək növbəti iki oyun üçün açıqlanan heyətində yer alıb.

İyunun 8-də Macarıstan, iyunun 11-də isə Slovakiya yığması ilə qarşılaşacaq Azərbaycan millisi bu oyunlara hazırlıq məqsədilə mayın 19-dan iyunun 11-dək təlim-məşq toplanışı keçirəcək.

“Qəbələ” Azərbaycan kubokunun mayın 19-da keçirilən final oyununda iştirak etdiyindən Bəhlul Mustafazadə milli komandaya mayın 24-də qoşulacaq.

# Bilirsinizmi?

- Tarixdə ilk odekolon taun xəstəliyinə qarşı profilaktik vasitə kimi istifadə edilib.
- Ulduz düşməsi kimi tanıdığımız hadisə əslində atmosferə girərək yanan göy daşlarıdır.
- "Google Earth" proqramı ilə dünyanın hər yerini gəzə bilərik. Amma insanların 95 faizi bu proqramdan öz evlərinə baxmaq üçün istifadə edirlər.
- Dünyanın ən çox satılan telefonu iPhone yox, "Nokia"nın 2003-cü ildə satışa çıxarılan və 250 milyon ədəd satılan "Nokia 1100" modelidir.
- Qallium adlı metal insan əlinin istiliyindən belə əriyir.
- 1998-ci ildə ingilis hakim Martin Silvestr futbolçunu yumruqladığı üçün özünə qırmızı kart vermişdi.
- Günəşə ən yaxın planet Merkuri olsa da, Günəş sisteminin ən isti planeti Veneradır (423 dərəcə).
- Aparılan tədqiqatlar nəticəsində ilk xəritənin məşhur kartoqraf Piri Rəis tərəfindən 1513-cü ildə çəkildiyi təsdiqlənib.
- Böyük Britaniyada seçkilər bir qayda olaraq cümə axşamı keçirilir.
- Donuzlar göyə baxa bilmirlər.

## Ən uzun yelləncək

*Yaponiyanın Kitakyuşu şəhərində dairə şəklində quraşdırılmış 163 metr uzunluğunda çoxyerli yelləncək dünyanın ən uzun yelləncəyi kimi “Ginnesin rekordlar kitabı”na daxil edilib.*

*Bu polad konstruksiyada eyni vaxtda 100 nəfər yellənə bilər. Yelləncək Kyüçü adasının şimalındakı şəhərin “Hibikinada” əyləncə parkında quraşdırılıb.*

*“Ginnesin rekordlar kitabı”nın nümayəndələri şəxsən bu konstruksiyanın uzunluğunu ölçdükdən sonra onun dünyanın ən uzun yelləncəyi olduğunu təsdiq ediblər.*

*Həmin yelləncəyin inşası üçün yerli büdcədən 120 milyon yen (təqribən 1 milyon dollar) vəsait sərf olunub.*

*Bundan əvvəl dünyanın ən uzun yelləncəyinin Niderlanddakı parkda yerləşdiyi və uzunluğunun 133 metrə bərabər olduğu bildirilirdi.*

## Əyləncə saatlarında

Qəzetimizin 3 may tarixli nömrəsində dərc olunan kriptoqrama düzgün cavabları şəhər 3 nömrəli məktəbin şagirdi Zəhra Alxaslı, 4 nömrəli məktəbin şagirdi Süsən Rüstəmli və İmamlı kənd məktəbinin şagirdi Ayaz Səmədov vermişdir.

| | | | |
|---|---|---|---|
| 1 | 29 | 27 | 7 |
| 23 | 11 | 13 | 17 |
| 15 | 19 | 21 | 9 |
| 25 | 5 | 3 | 31 |


QƏBƏLƏ
Qəbələ rayonunun ictimai-siyasi qəzeti
qəzetinə
2019-cu ilin ikinci yarısı üçün abunə yazılışı davam edir
Yarımillik abunə qiyməti 15 manatdır.
Qəzetimizə «Kapitalbank»ın Qəbələ filialında abunə yazılmaq olar.
Hesab № AZ36AİİB 33080019444900218149. VÖEN 4400103601.
Redaksiyanın ünvanı: Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 56 (rayon icra hakimiyyətinin inzibati binası, I mərtəbə).
Telefonlar: (024)205-19-14, (024)205-15-56, mob. (050) 671-06-94.


## İşaxtaran vətəndaşların nəzərinə!

Qəbələ Rayon Məşğulluq Mərkəzi 21 may 2019-cu il tarixdə əmək yarmarkası keçirir.

İşaxtaran vətəndaşlar, sizi əmək yarmarkasına dəvət edirik.

Yarmarka saat $11^{00}$-da başlanılır.

Yarmarka Qəbələ Dövlət Peşə Təhsili Mərkəzində keçiriləcəkdir.

**Ünvan:** Qəbələ şəhəri 28 may küçəsi 34.

**Qəbələ Rayon Məşğulluq Mərkəzi.**


«QƏBƏLƏ» qəzetinin reklam xidməti
205-19-14, 205-15-56


## ALLAH RƏHMƏT ELƏSİN!

Qəbələ Müalicə-Diaqnostika Mərkəzinin baş həkimi Ceyhun Əhmədov və mərkəzin kollektivi müalicə işləri üzrə baş həkimin müavini **Kamal Məmmədova** anası

**MƏHLUQƏ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

## İtmişdir

Qəbələ Rayon Aqrar İslahat Komissiyasının 15 dekabr 1997-ci il tarixdə 27 saylı qərarı ilə Soltannuxa kənd sakini **Mustafayev Xalid Seyfəddin oğluna və ailə üzvlərinə** verilmiş JN seriyalı 196 nömrəli (kod 40602038) **torpağa mülkiyyət hüququna dair dövlət aktları** itdiyi üçün etibarsız sayılır.

---

Qəbələ Rayon Aqrar İslahat Komissiyasının 15 dekabr 1997-ci il 27 saylı qərarı ilə Soltannuxa kənd sakini **Mustafayev Nadir Xalid oğluna və ailə üzvlərinə** verilmiş JN seriyalı 197 nömrəli (kod 40602038) **torpağa mülkiyyət hüququna dair dövlət aktları** itdiyi üçün etibarsız sayılır.

---

Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Mənzil-Kommunal Təsərrüfatı Komitəsi Azmex inventarlaşdırma İstehsalat Birliyi tərəfindən Qəbələ şəhər sakini **Məmmədov Aydın Bəxtiyar oğluna** 05 aprel 1999-cu il tarixdə verilmiş 15 nömrəli (inv. № 60) **qeydiyyat vəsiqəsi** itdiyi üçün etibarsız sayılır.

---

Şükran Eyvazov adına Yemişanlı kənd tam orta məktəbi tərəfindən **Qasımova Məhəbbət Etibar qızına** 2006-cı ildə verilmiş A seriyalı 338068 nömrəli **ümumi orta təhsil haqqında şəhadətnamə** itdiyi üçün etibarsız sayılır.


Redaktor
Varis Yaqubov.

TƏSİSÇİLƏR:
Qəbələ Rayon İcra Hakimiyyəti və redaksiyanın jurnalist kollektivi.
Redaksiya ilə müəllifin mövqeyi fərqli ola bilər
Məsul katib
Qüdrət Səmədov.

ÜNVANIMIZ:
AZ 3600, Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 226.
Redaktor: (024) 205-19-14.
Ümumi: (024) 205-15-56.
e-mail: news@qebele-ih.gov.az
Elanların və reklamların mətnlərinə görə redaksiya məsuliyyət daşımır.

Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyində qeyddən keçmişdir.
Lisenziya AV № 022611
«Kapitalbank»ın Qəbələ filialında hesab № Az36AİİB 33080019444900218149
VÖEN: 4400103601

«Qəbələ» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Bakı şəhərində «Azərmedia» MMC-nin mətbəəsində ofset üsulu ilə çap edilmişdir.
Dizayner Rais Rəşidov
Oxucu məktublarına cavab verilmir və əlyazmaları geri qaytarılmır.
Tiraj 1780